# “Narkoman” Sumqayıt səhnəsində

**Sumqayıt Dövlət Dram Teatrı yeni layihəyə start verib. Teatrı Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyi ilə birgə “Ağ ölümə “yox!” deyək” layihəsi üzrə dramaturq Kamran Nəzirlinin “Narkoman” faciəsini daimi repertuarına daxil edib.**



Bugünlərdə əsərə növbəti baxış olub. Seyrçilər ölümcül vərdiş ucbatından uçuruma yuvarlanan, mənəvi-fiziki cəhətdən heçə dönən bir gəncin taleyi fonunda narkomaniyanın törətdiyi dəhşətləri izləyiblər. Xalq artisti Kamran Quliyevin quruluş verdiyi psixoloji dramda rolları Əməkdar artistlər Növrəstə Həşimova, Cəlal Məmmədov, aktyorlar Şəhla Məmmədova, İradə Zeynalova, Sevda Hüseynova, Mətləb Səfərli, Rövşad İlyasov, İlqar İbrahimov və Rövşən Əsgərov canlandırıblar. Tamaşanın quruluşçu rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı İmamverdi Əhmədovdur.

Tamaşadan sonra çıxış edənlər narkomaniya əleyhinə keçirilən tədbirlərin vacibliyindən danışıb, “Ağ ölüm”ə qarşı birgə mübarizədə əməkdaşlığın vacibliyini və bu işdə teatrın rolunun əvəzsiz olduğunu vurğulayıblar.

Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov “XQ” üçün açıqlama verərək deyib:

– Narkomaniya, alkoqolizm və digər neqativ halların aradan qaldırılmasına kömək məqsədilə, maarifləndirici “Narkoman” tamaşasını gənc və yeniyetmələrdən təşkil olunmuş auditoriyaya təqdim etdik. Tamaşanın nümayişində məqsəd gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılması, sağlam nəslin yetişdirilməsi, vətənpərvər, müasir Sumqayıt gəncliyinin formalaşdırılmasına nail olmaqdır. Biz bu ərəfədə sosial şəbəkə vasitəsilə tamaşaçılara müraciət edərək dedik ki, gəlin, Sumqayıtın şöhrətini qorumaq, şəhərin sağlam həyatını mühafizə etmək üçün birlikdə səy göstərək və səhnəmizdə mütəmadi oynanılacaq bu tamaşaya birlikdə baxaq.

Bilinməzə yeyin addımlarla yollanan yeniyetmə və gəncləri aydınlığa çıxartmaq, onlara işıqlı sabahın üfüqlərini göstərmək heç də gec deyil. Çağırışımız eşidildi və gördüyünüz kimi, əsərə çoxlu tamaşaçı baxdı. Bu, uğurlu bir aksiya oldu.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti .- 2024.- 3 dekabr (№266).- S.10.